**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

YÜKSƏK TƏHSİL İNSTİTUTUNUN MAGİSTRATURA VƏ DOKTORANTURA ŞÖBƏSİ, BEYNƏLXALQ BİZNES MƏKTƏBİNİN MBA VƏ SABAH MAGİSTRATURA PROQRAMLARINDA təhsil alan tələbələrin

**MAGİSTRLİK DİSSERTASİYALARININ**

yerinə yetirilməsi üçün

# METODİKİ GÖSTƏRİŞ

Azərbaycan Texniki Universitetinin Yüksək Təhsil İnstitutunun Şurasının 07 mart 2024-cü il tarixli iclasının qərarı (protokol №1) ilə təsdiq edilmişdir.

**BAKI – 2024**

**Tərtib edənlər: i.ü.f.d., dos. A.N. Eminov**

**t.ü.f.d., dos. H.M. Abbasova**

**Yüksək Təhsil İnstitutunun magistratura və doktorantura şöbəsi, Beynəlxalq Biznes Məktəbinin MBA və SABAH magistratura proqramlarında təhsil alan tələbələrin magistrlik dissertasiyalarının yerinə yetirilməsi üçün Metodiki göstəriş / A.N. Eminov, H.M. Abbasova. – Bakı: AzTU, - 2024. – 42 s.**

**Elmi redaktorlar: t.e.d., prof. S.N. Namazov -** Azərbaycan Texniki Universitetinin elm və innovasiyalar üzrə prorektoru

**i.ü.f.d., dos. F.O. Məmmədov -** Azərbaycan Texniki Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru

**Rəyçilər:** Azərbaycan Texniki Universitetinin "Maşınqayırma texnologiyası" kafedrasının müdiri, texnika elmləri doktoru, professor **Nizami Dəmir oğlu Yusubov**

Azərbaycan Texniki Universitetinin "İqtisadiyyat və statistika" kafedrasının dosenti, iqtisad elmləri üzrə fəlsəfə doktoru **Natəvan Veysəl qızı Namazova**

*Metodiki göstəriş Azərbaycan Texniki Universitetinin (AzTU) Yüksək Təhsil İnstitutunun (YTİ) magistratura və doktorantura şöbəsi, Beynəlxalq Biznes Məktəbinin MBA və SABAH magistratura proqramları üzrə təhsilalanlar tərəfindən magistrlik dissertasiyası mövzusunun və elmi rəhbərin müəyyən edilməsi, dissertasiyanın hazırlanması və müdafiəyə təqdim edilməsi, eləcə də magistrlik dissertasiyasının hazırlanması üzrə hesabatların təqdim olunması və onların qiymətləndirilməsi prosedurlarını həyat keçirmək üçün nəzərdə tutulmuşdur. Metodik göstəriş magistr dissertasiyasının hazırlanması, təsdiq olunması və müdafiəsi qaydaları haqqında mövcud əsasnamənin tələbləri, YTİ-nin Əsasnaməsi, AzTU-nun rəhbərliyinin və Elmi Şurasının qəbul etdiyi qərarlar, eləcə də digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında tərtib edilmişdir.*

# MÜNDƏRİCAT

**GİRİŞ**.....................................................................................................................................4

**1.1. ÜMUMİ MÜDDƏALAR** ……………………………………………………………………........4

**2. MAGİSTRLİK DİSSERTASİYASININ MÖVZUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ** …….9

**3. MAGİSTRLİK DİSSERTASİYASINA RƏHBƏRLİK** .................................................................... 10

**4. MAGİSTR DİSSERTASİYASININ HAZIRLANMASI PROSESİNDƏ HESABATLILIQ VƏ QİYMƏTLƏNDİRMƏ PROSESLƏRİ** .............................................................................................. 12

**5. MAGİSTRLİK DİSSERTASİYASININ MƏQSƏDİ, MƏRHƏLƏLƏRİ, STRUKTURU VƏ MƏZMUNU** .......................................................................................................................................... 13

**6. MAGİSTRLİK DİSSERTASİYASININ TƏRTİBİ QAYDALARI** ................................................ 18

**7. MAGİSTRLİK DİSSERTASİYASININ REFERATININ TƏRTİBİ**............................................... 25

**8. MAGİSTRLİK DİSSERTASİYASININ MÜDAFİƏSİ** .................................................................. 26

*Əlavə 1* ....................................................................................................................................... 29

*Əlavə 2* ....................................................................................................................................... 30

*Əlavə 3* ....................................................................................................................................... 31

*Əlavə 4* ....................................................................................................................................... 34

*Əlavə 5* ....................................................................................................................................... 35

*Əlavə 6* ....................................................................................................................................... 36

*Əlavə 7* ....................................................................................................................................... 38

*Əlavə 8* ....................................................................................................................................... 39

*Əlavə 9* ....................................................................................................................................... 41

*Əlavə 10* ..................................................................................................................................... 42

# 1. GİRİŞ
## 1.1. ÜMUMİ MÜDDƏALAR

1. Bu Qaydalar Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2016-cı il 30 sentyabr tarixli 640 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin magistratura səviyyəsində iqtisadiyyat və idarəetmə, texnologiya mühəndisliyi ixtisasları üzrə dövlət standartları”, Ali təhsilin magistratura və doktorantura səviyyələrində təhsilalanlar tərəfindən təhsili tənzimləyən normativ-hüququ aktlar və AzTU-nun daxili qaydaları, YTİ-nin Əsasnaməsi, AzTU-nun rəhbərliyinin və Elmi Şurasının qəbul etdiyi qərarlar, eləcə də digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında tərtib edilmişdir.
2. Bu Qaydalar AzTU-nun YTİ magistratura və doktorantura şöbəsi, YTİ-nin Beynəlxalq Biznes Məktəbinin MBA və SABAH magistratura proqramları üzrə təhsilalanlar tərəfindən magistrlik dissertasiyası mövzusunun və elmi rəhbərin müəyyən edilməsi, dissertasiyanın hazırlanması və müdafiəyə təqdim edilməsi, eləcə də magistrlik dissertasiyasının hazırlanması üzrə hesabatların təqdim olunması və onların qiymətləndirilməsi prosedurlarını müəyyən edir.
3. Bu Qaydaların məqsədi magistrlik dissertasiyalarının hazırlanması prosedurlarını dəqiqləşdirməklə onların keyfiyyətinin yüksəldilməsindən və dissertasiya işi üzə müvafiq hesabatların qiymətləndirilməsi zamanı obyektivliyin təmin olunması mexanizmlərinin müəyyən edilməsindən ibarətdir. Ali təhsilin magistratura səviyyəsində təhsilin yekun mərhələsi magistrlik dissertasiyasının müdafiəsidir. Magistrlik dissertasiyasının

müdafiəsinə tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəyən və müvəffəq qiymət alanlar buraxılırlar.

4. MBA Proqramı tələbələri magistrlik dissertasiyanın yazılması ilə bağlı seçim edə bilərlər. Dissertasiya yazacaq MBA tələbəsi ikinci kursun birinci semestrində YTİ-nin direktorunun adına rəsmi ərizə ilə müraciət edir.
5. Magistrlik dissertasiyası müasir elm və texnologiya üçün nəzəri və ya praktiki əhəmiyyət kəsb edən aktual problemin həllinə həsr olunmuş ixtisaslaşdırılmış tədqiqat işidir.
6. Magistrlik dissertasiyası dissertantın elmi potensialını üzə çıxarmaq, onun müstəqil tədqiqatlarının təşkili və aparılması, tədqiq olunan sahədə problemlərin həllində müasir metod və yanaşmalardan istifadə etmək, tədqiqatın nəticələrinin müəyyən edilməsi, nəticələrin formalaşdırılması, tədqiqatın nəticələrinin müəyyənləşdirilməsi, nəticələrin formalaşdırılması, elmi tədqiqat işlərinin təşkili və aparılması bacarıqlarını nümayiş etdirmək, onu müdafiə etmək və əsaslı tövsiyə və təkliflər hazırlamaq üçün nəzərdə tutulmuşdur. Magistraturada təhsil müddəti ərzində aparılan tədqiqatlar hazırlığın istiqamətinə və peşə fəaliyyət növünə uyğun olmalıdır; onlar tədqiqat, dizayn və istehsal xarakterli ola bilər.
7. Magistrlik dissertasiyasının yazılması aşağıdakıları əhatə edir:
   - magistratura hazırlığı istiqamətində nəzəri və praktiki biliklərin sistemləşdirilməsi, möhkəmləndirilməsi və genişləndirilməsi, onların konkret tədqiqat və konstruktor problemlərinin həllində tətbiqini;
   - elmi problem və məsələlərin həllində müstəqil iş aparmaq və tədqiqat metodlarını mənimsəmək və eksperiment aparmaq bacarıqlarının inkişaf etdirilməsini;
   - magistrantın pedaqoji, elmi-tədqiqat fəaliyyətində və istehsalat sahələrində müstəqil işə hazırlıq dərəcəsinin qiymətləndirilməsini.
8. Dissertasiya tədqiqatının nəticələri göstərməlidir ki, magistrant təhsil sahəsində Ali Təhsilin Dövlət Təhsil Standartına uyğun olaraq seçilmiş təlim sahəsində və peşə fəaliyyət növündə müvafiq səlahiyyətlərə malikdir. Dissertasiya işinin məzmunu elm,

texnika, texnologiya, iqtisadiyyat, idarəetmə, sosial inkişaf, istehsalat və s. sahəsində aktual problemlərin həllinə yönəlmiş nəzəri və təcrübi tədqiqatların nəticələri ola bilər.

9. Magistrlik dissertasiyası bakalavr tərəfindən şəxsən toplanmış materiallar və elmi rəhbərin rəhbərliyi altında təhsil müddəti ərzində aparılmış tədqiqatlar əsasında müstəqil şəkildə həyata keçirilir.
10. Magistrlik dissertasiyasının əsas nəticələri nəşrlər və elmi-praktiki konfranslarda çıxışlarla təqdim oluna bilər.
11. Magistrlik dissertasiya layihə yanaşması (MBA istisna olunmaqla) əsasında layihə qismində Universitet-Sənaye Əməkdaşlığı və Ömurboyu Təhsil Mərkəzində qeydiyyatdan keçir, müəyyən edilmiş plan üzrə icra edilir, icrasına nəzarət həyata keçirilir, monitorinq aparılır, ilkin və yekun müdafiələrdə müdafiə olunur. Əqli mülkiyyət hesab olunan bütün dissertasiya işləri sonuncu mərhələdə AzTU-ya təhvil verilir.
12. Yüksək səviyyədə hazırlanmış və uğurla müdafiə olunan dissertasiya layihələri müdafiədən sonra sənaye yarmarkasına buraxılma və ictimaiyyətə təqdim olunması üçün vəsiqə qazanır.
13. AzTU-da magistrlik dissertasiyalarının yerinə yetirilməsi ardıcıllığı aşağıdakı sxem üzrə həyata keçirilir (şəkil 1):

**Başlanğıc mərhələsi** - Universitet-Sənaye Əməkdaşlığı və Ömurboyu Təhsil Mərkəzi tərəfindən həyata keçirilir və aşağıdakı məsələləri əhatə edir:

- ❖ Dissertasiya layihə (tədqiqat) mövzusunun seçilməsini (əsaslandırılması);
- ❖ Texniki Tapşırığın (işin yerinə yetirilməsinə dair şərtlərin) hazırlanmasını;
- ❖ Elmi rəhbər (və sənaye üzrə məsləhətçilər) və müəllif(lər)lə münasibətləri;
- ❖ Akademik yazı və üslub təlimatlarını;
- ❖ Layihələrin idarə edilməsi yolu ilə işin yerinə yetirilməsinin (vaxtın) idarə olunmasını;
- ❖ Keyfiyyətli dissertasiya layihələri və müdafiəni;
- ❖ Təhvil verilməsini.

**İşlənmə mərhələsi -** Mövzu hovuzunun formalaşdırılması, Layihə sənədləri əsasında işlərin yerinə yetirilməsinə nəzarət və monitorinq;

**İlkin müdafiə mərhələsi –** İlkin müdafiədə Texniki Tapşırığın şərtləri üzrə baxış və qiymətləndirmə;

**Müdafiə mərhələsi –** Magistrlik dissertasiyasının müdafiəsi;

**Sənaye yarmarkası –** Startupların və “spinoff”ların formalaşdırılması, Nəticələrin sənayeyə təqdim olunması;

**Təhvil verilməsi -** Əqli mülkiyyət hüquqlarının tanınmasına (və qorunmasına) dair razılaşma, Repozitariyaya daxil edilməsi;




**Şəkil 1.** Magistrlik dissertasiyalarının yerinə yetirilməsi sxemi

# 2. MAGİSTRLİK DİSSERTASİYASININ MÖVZUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Magistrlik dissertasiyasının mövzusu müvafiq, elmi və (və ya) praktiki maraq kəsb etməli və magistrantın seçdiyi təhsil istiqamətinə uyğun olmalıdır.

AzTU-da magistrlik dissertasiya mövzularının seçilməsinə dair aşağıdakı yanaşmalar mövcuddur:

- AzTU-nun prioritet elmi istiqamətlərinə uyğun olmalı;
- Sənayədən, bilavasitə sahibkarlıq subyektlərindən daxil olan problemlərin həllinə istiqamətlənmiş olmalı;
- “Bilişim Vadisi Bakı” Texnoparkında fəaliyyət göstərən müəssisələrindən daxil olan mövzular olmalı;
- Bilavasitə AzTU-da mövcud olan infrastruktur, fəaliyyət, genişləndirmə, tanıtım və s. təhlil və tətbiqi həllər tələb edən məsələlərin həllinə yönəlmiş olmalı;
- AzTU-nun İcraçı qismində cəlb edilməklə həyata keçirilən layihənin tərkib hissəsi olmalı, (məs, «Şəhər mobillik» layihəsində olduğu kimi);
- Startup və ya “spinoff”ların yaradılması məqsədilə formalaşdırılmış məsələ olmalı,
- Xarici təcrübədə mövcud olan ən yaxşı təcrübələrin, səmərələşdirici təkliflərin, texnoloji həllərin ölkəmizdə inteqrasiyasına yönəlmiş olmalı;
- və s.

AzTU-nun prioritet elmi istiqamətləri aşağıdakılardır:

- **Data analitika, Süni İntellekt və Kibertəhlükəsizlik**

  *(Data analytics, Artificial Intelligence and Cybersecurity)*
- **Enerji, Nəqliyyat və Mobillik**

  *(Energy, Transportation and Mobility)*
- **Robotlar və Sənaye Əşyaları İnterneti**

  *(Robotics and Industrial Internet of Things)*
- **Yeni materiallar və nanotexnologiyalar**

*(Advance Materials and Nanotechnology)*

**Dayanıqlı İnkişaf və Ətraf mühit texnologiyaları**

*(Sustainable Development and Environment Technologies)*

Magistrlik dissertasiyalarının mövzuları magistrantın təhsil istiqamətinə uyğun olan sənaye sahələrinin müasir problemlərini əhatə etməklə AzTU-nun institutlarından və ixtisas kaferalarının əməkdaşlıq etdikləri sənaye müəssisələrindən toplanaraq ***"Dissertasiya Mövzu Hovuzu"*** formalaşdırılır. Toplanmış mövzular AzTU-nun rəsmi səhifəsində yerləşdirilir. Bu link https://www.aztu.edu.az/sub_site/az/yuksek-tehsil-institutu-83/page/dissertasiya-movzu-hovuzu-756 vasitəsilə həmin səhifəyə keçid etmək mümkündür. Magistrantlar həmin səhifədə qeydiyyatdan keçərək ixtisas profilinə uyğun mövzulardan birini sərbəst şəkildə seçirlər (bir mövzu bir neçə magistrant tərəfindən seçilə bilər). Bundan sonra seçilmiş mövzular ixtisas kafedralarına göndərilərək elmi rəhbərlər (AzTU-nun YTİ ilə razılaşdırılmaqla) təyin edilir. Həmçinin magistrantlar özləri də mövzu təklif edə bilərlər. Mövzu təklifi forması yuxarıda göstərilən linkdə göstərilmişdir. Bu zaman həmin mövzu YTİ-nin İdarə Heyətinə təqdim edilir və orada baxıldıqdan sonra mövzunun təsdiqi ilə əlaqədar qərar verilir. Magistrlik dissertasiyalarının mövzuları və elmi rəhbərlərinin yekun siyahısı dekabr ayının 1-dək Əlavə 1-də verilən formada YTİ-nin Elmi-Şurasında müzakirə edilərək təsdiq olunur.

## 3. MAGİSTRLİK DİSSERTASİYASINA RƏHBƏRLİK

Tələbələr AzTU-nun YTİ magistratura və doktorantura şöbəsi, YTİ-nin Beynəlxalq Biznes Məktəbinin MBA və SABAH magistratura proqramlarına daxil olduqda, dissertasiyanın mövzusunun seçimi, dissertasiyanın hazırlanması, yazılması və müdafiəsi zamanı rəhbərliyi altında həyata keçiriləcək elmi rəhbəri təyin edilir.

Bir sıra zəruri hallarda, o cümlədən magistrlik dissertasiyasının mövzusu ixtisasların qovuşuğuna uyğun gəldikdə, magistrantın dissertasiyasını elmi rəhbəri ilə yanaşı, ona

məsləhətçi də təyin edilə bilər. Məsləhətçi başqa ali təhsil, elmi-tədqiqat, sənaye və təsərrüfat müəssisələrinin yüksək ixtisaslı mütəxəssislərindən də seçilə bilər.

Elmi rəhbərin vəzifələri aşağıdakılardır:

- ❖ magistrantlara fərdi iş planının (fərdi cədvəlinin) işlənib hazırlanması, magistrlik dissertasiyasının iş planı, dissertasiya üçün lazım olan ədəbiyyat mənbələrinin və məlumatların seçilməsi barədə məsləhətlər verir;
- ❖ sistemli məsləhətləşmələr aparır, magistranta lazımi metodiki köməklik göstərir;
- ❖ dissertasiya işi üzrə işin gedişinə nəzarət edir, tamamlanmış işin məzmununu hissə-hissə qiymətləndirir və zəruri hallarda düzəlişlər edir;
- ❖ magistr dissertasiyasının təqdimatının və onun müdafiəsi üçün çıxışının hazırlanması prosesində magistrantlara məsləhətlər verir;
- ❖ dissertasiya işi üzrə məqalələrin hazırlanmasına köməklik göstərir.

Tapşırıqda nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinə nəzarət elmi rəhbər tərəfindən həyata keçirilir. Həmçinin, magistrlik dissertasiya işlərinin yerinə yetirilməsinə nəzarətin digər forması, dissertasiya rəhbərinin iştirakı ilə magistr hesabatının müzakirəsidir (ilkin müdaifəsidir).

Magistrant öz dissertasiya işini bitirdikdən və qoyulan tələblərə uyğun tərtib etdikdən sonra referatla birlikdə elmi rəhbərə təqdim edir. Elmi rəhbər işi yoxlayıb, bəyəndikdən sonra yazılı rəyi ilə birlikdə ilkin müzakirə üçün İnstitutlara təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu əsaslandırılır. Magistrantın işin icrasında müstəqillik dərəcəsi, problemlərin açılmasında və onların həlli üçün təkliflərin hazırlanmasında şəxsi töhfəsi, magistr dissertasiyasına uyğunluğu göstərilir. Rəydə mütləq magistr dissertasiyasının müdafiəyə qəbul edilməsinin mümkünlüyü (mümkünsüzlüyü) haqqında nəticə olmalıdır.

Dissertasiyanın ilkin müdafiəsini AzTU-nun İnstitutlarında təşkil edilir. YTİ-nin direktoru təqdim olunmuş materialların müdafiəyə buraxılması barədə qərar qəbul edir və magistrlik dissertasiyasının titul vərəqində müvafiq qeydlər aparır. YTİ-nin direktoru

magistrantı dissertasiya müdafiəsinə buraxmağı mümkün hesab etmədikdə bu məsələyə elmi rəhbərin iştirakı ilə YTİ-də baxılır.

Aşağıda göstərilən hallarda elmi rəhbərin və dissertasiya mövzusunun dəyişdirilməsi mümkündür:

1. Magistrant qane olmadıqda və ya ön qiymətləndirmənin nəticəsinə görə elmi rəhbər dəyişdirilə bilər;

2. Mövzu götürüldükdən sonra, bir ayadək müddətdə magistrantın mövzunun dəyişdirmək imkanı mövcuddur;

3. Müstəsna hallarda (elmi rəhbər vəfat etdikdə, uzun müddətə ölkə xaricinə getdikdə, xəstəliyi ilə əlaqədar uzun müddət işə çıxmadıqda, mövzu aktuallığını itirdikdə və s.) magistrantın elmi rəhbəri və dissertasiya mövzusu müəyyən edilmiş qaydada dəyişdirilə bilər.

## 4. MAGİSTR DİSSERTASİYASININ HAZIRLANMASI PROSESİNDƏ HESABATLILIQ VƏ QİYMƏTLƏNDİRMƏ PROSESLƏRİ

Magistrlik dissertasiyasının yerinə yetirilməsi prosesi 2-ci kursun sentyabrından başlayır, ilkin və yekun monitorinq, ilkin müzakirə və müdafiə mərhələlərindən keçərək, dissertasiyanın AzTU Kitabxana İnformasiya Mərkəzinə (KİM) təhvil verilməsi ilə yekunlaşır. Bunun üçün dissertasiya müəllifi KİM-in saytına https://library.aztu.edu.az/ daxil olaraq “Rəqəmsal Repozitariya” qısa yoluna keçid etməklə açılan səhifədə “Rəqəmsal Repozitariyaya Resurs Təqdimat Forması”nı dolduraraq imzalayıb, skannerdən nüsxələnmiş versiyasını (skan edilmiş) library.services@aztu.edu.az email ünvanına göndərməlidirlər. Əgər qrup işidirsə qrupdan müəlliflərdən bir nəfər sənədi dolduraraq digər müəlliflərə imzalatmaqla nüsxələnmiş versiyanı email vasitəsilə KİM-ə təqdim etməlidir. Magistrlik dissertasiyasının yerinə yetirilməsi mərhələləri və müddətləri sxemi Əlavə 2-də verilmişdir.

## 5. MAGİSTRLİK DİSSERTASİYASININ MƏQSƏDİ, MƏRHƏLƏLƏRİ, STRUKTURU VƏ MƏZMUNU

1. Magistrlik dissertasiyasının məqsədi:
   - müvafiq istiqamət və magistratura proqramı üzrə məzunun peşə və ümumi təhsil səviyyəsini göstərmək;
   - müvafiq bilik sahəsi üzrə ədəbi mənbələri müstəqil öyrənmək və ümumiləşdirmək bacarığını nümayiş etdirmək;
   - müstəqil elmi iş aparmaq bacarığını nümayiş etdirmək;
   - tədqiqat aparmaq, layihələndirmə işləri aparmaq, faktiki materialı sistemləşdirmək və ümumiləşdirmək;
   - tədqiqatın nəticələrinə əsasən nəticə və praktiki tövsiyələri müstəqil formalaşdırmaq və əsaslandırmaq bacarığını nümayiş etdirməkdir.
2. Magistrlik dissertasiyasının yerinə yetirilməsi mərhələlərinə aşağıdakılar daxildir:
   - tədqiqatın mövzusu və məqsədinin seçilməsi;
   - bu işə olan tələblərin öyrənilməsi;
   - iş planının rəhbəri ilə razılaşdırılması (bax: Əlavə 3);
   - problem üzrə informasiya resurslarının öyrənilməsi, tədqiqatın məqsəd, tapşırıq və metodlarının müəyyən edilməsi;
   - problemin (mövzunun) bilavasitə işlənməsi və eksperimentlərin aparılması;
   - əldə edilmiş nəticələrin təhlili və ümumiləşdirilməsi;
   - işin yazılması və tələb olunan formaya salınması;
   - işin nəzərdən (rəhbərin rəyi) keçirilməsi;
   - müdafiəyə hazırlıq, müdafiə və işin qiymətləndirilməsi.
3. Magistrlik dissertasiyasının strukturuna aşağıdakı bölmələr daxil edilməlidir:
   - titul vərəqi;
   - tapşırıq;
   - magistrantın andı

- Mündəricat;
- İxtisarların siyahısı;
- Giriş;
- Bölmələrə və yarımbölmələrə və ya fəsil və paraqraflara bölünmüş əsas hissə;
- Nəticə;
- Ədəbiyyat siyahı;
- Əlavələr (ehtiyac olduqda).

***Titul vərəqi*** standart blankda tərtib edilir və universitetin rektoru tərəfindən təsdiq edilən formada magistrlik dissertasiya mövzusunun adını ehtiva edir. Magistrlik dissertasiyasının müdafiəsində əvvəl titul vərəqi magistrant, elmi rəhbər, məsləhətçilər (varsa) tərəfindən imzalanmalıdır. Titul vərəqi Əlavə 4-də verilmiş formaya uyğun doldurulur. Əgər dissertasiya işinin mövzusu bir neçə magistrant tərəfindən komanda şəklində yerinə yetirilibsə, o zaman magistrantlar titul vərəqində, ümumi mövzunun qarşısında kvadrat mötərizədə işlədikləri alt mövzunun adını (bu fəsillərdən biri ola bilər) da qeyd etməlidirlər. Alt mövzunun adı ilk hərfi böyük olmaqla qalın şriftlə yazılmalıdır.

***Magistrantın andı*** Magistrlik dissertasiyasının magistrant tərəfindən elmi əxlaq normalarına və istinad qaydalarına uyğun şəkildə yazıldığını əks etdirir (Əlavə 5). Həmçinin magistrant(lar) hazırladıqları magistrlik dissertasiyasının AzTU Kitabxana İnformasiya Mərkəzində saxlanılması və həmin mərkəz tərəfindən AzTU Rəqəmsal Repozitoriyasına daxil edilərək repozitoriyanın veb saytında yerləşdirilməsinə icazə verdiklərini imza ilə təsdiq edirlər.

***Giriş*** aşağıdakı elementləri özündə ehtiva edən işin ümumi xarakteristikasına malikdir:

- *Mövzunun aktuallığı* - problemin mahiyyətinin, elmin və praktikanın tələblərinə uyğun olaraq problemin həllinin zəruriliyi və vaxtında olması haqqında qısa (1-2 səhifə) xülasəsidir. Dissertasiya, artıq qeyd olunduğu kimi, səriştəli əsərdir və onun müəllifinin mövzunu necə seçə bilməsi və bu mövzunu aktuallığı və ictimai

əhəmiyyəti baxımından nə dərəcədə düzgün dərk edib dəyərləndirməsi, onun elmi yetkinliyini, peşəkar hazırlığını səciyyələndirir.

- *Tədqiqatın məqsədi və vəzifələri* - məqsədə çatmağa kömək edən məqsəd və konkret vəzifələrin müəyyən edilməsidir. Seçilmiş mövzunun aktuallığını sübut etməkdən, aparılan tədqiqatın məqsədini formalaşdırmaqla yanaşı, bu məqsədə uyğun olaraq həll edilməli olan konkret vəzifələri göstərməyə keçmək məntiqlidir. Bu, adətən, sadalama formasında həyata keçirilir (kəşf etmək, təsvir etmək, qurmaq, tapmaq, düstur çıxarmaq və s.). Bu vəzifələrin tərtibi mümkün qədər diqqətlə aparılmalıdır, çünki onların həllinin təsviri dissertasiyanın fəsillərinin məzmununu təşkil etməlidir. Bu, həm də ona görə vacibdir ki, bu cür fəsillərin başlıqları məhz aparılan tədqiqatın məqsədlərinin formalaşdırılmasından irəli gəlir.
- *Tədqiqatın predmeti və obyekti* - dissertasiyanın mövzusu və adı ilə müəyyən edilir. *Obyekt* problemli vəziyyət yaradan və öyrənilmək üçün seçilən proses və ya hadisədir. *Predmet*, obyektin hüdudları daxilində yerləşir. Elmi prosesin kateqoriyaları kimi tədqiqatın obyekti və predmeti ümumi və xüsusi olaraq bir-biri ilə bağlıdır. Məhz tədqiqatın predmeti dissertasiya işinin mövzusunu təyin edir ki, o da titul səhifəsində onun adı kimi göstərilir.
- *Tədqiqat metodları* – İstifadə olunan riyazi aparat və alətlərdir. Elmi bilik üsulları adətən ümumi və xüsusi olmaqla iki qrupa bölünür. Ümumi elmi metodların üç növü mövcuddur:

- empirik tədqiqat metodları (müşahidə, müqayisə, ölçmə, təcrübə);
- tədqiqatın həm empirik, həm də nəzəri səviyyələrində istifadə olunan metodlar (abstraksiya, analiz və sintez, induksiya və deduksiya, modelləşdirmə və s.);
- nəzəri tədqiqat metodları (mücərrəddən konkretə yüksəliş və s.).

- *Elmi yeniliyin elementləri* - tədqiqat prosesində əldə edilən nəzəri xarakterli yeni nəticələr (yeni yanaşma, asılılıqlar, metod, model, metodologiya və s.);
- *Praktiki həll* (2-3 və ya daha çox bənd) - praktikada istifadə oluna bilən tətbiqi xarakterli yeni nəticələr (metodlar, informasiya texnologiyaları, proqram təminatı və

s.) və nələr verir (iqtisadi effekt, vaxt və material xərclərinin azalması, problemin kompleks həlli və s.);

- *Müdafiə üçün təqdim edilən nəticələr* (vəzifələr) - yəni, müzakirəsi aparılan elmi işin əhəmiyyətini və keyfiyyətini qiymətləndirməyə imkan verən yeni və əhəmiyyətli nəticələr;
- *Nəticələrin aprobasiyası* - işin əsas müddəalarının müzakirə olunduğu seminar və konfranslarda (siyahı) iştirakı əks etdirir (konfranslarda və elmi qrant müsabiqələrində iştirak nəticəsində alınmış diplom və sertifikatların da göstərilməsi məqsədəuyğundur).
- *Nəşrlər* - əsas tədqiqat nəticələrinə dair çap olunmuş məqalələrin sayını göstərir.

***Əsas hissə***, bir qayda olaraq, nəzəri və eksperimental tədqiqatların bölmələrini, praktiki həyata keçirmə məsələlərinin nəzərdən keçirilməsini əhatə edir. Əsas hissədə problemin vəziyyətinin tənqidi təhlili, problemin həlli üçün təklif olunan yollar, tədqiqatın nəticələrinin təsdiqi, onların praktiki tətbiqi və perspektivləri göstərilir. Bölmələrdə dissertasiya işinin mövzusu məntiqi və əsaslı şəkildə açıqlanır, tədqiqatın metod və üsullarına kifayət qədər ətraflı şəkildə baxılır, əldə edilən nəticələr müzakirə edilir və ümumiləşdirilir. Əsas hissə adətən üç fəsli əhatə edir. Ümumiyyətlə, bu hissədə aşağıdakı komponentlər olmalıdır:

- analitik baxış;
- eksperimental hissə;
- elmi (nəzəri) hissə;
- tətbiqi hissə.

Dissertasiyanın əsas hissəsinin fəsillərində ətraflı şəkildə işlənilir, tədqiqatın metodologiyası və texnikası nəzərdən keçirilir və nəticələr ümumiləşdirilir.

Elmi problemin həllini başa düşmək üçün çox da vacib olmayan bütün materiallar əlavələrə daxil edilir.

Əsas hissənin fəsillərinin məzmunu dissertasiya işinin mövzusuna tam uyğun gəlməli və onu tam şəkildə açıqlamalıdır. Bu fəsillər magistrantın materialı yığcam,

məntiqli və arqumentli şəkildə təqdim etmək bacarığını göstərməli, təqdimatı və tərtibatı çapa göndərilən dissertasiyaların tərtibi qoyulan tələblərə cavab verməlidir.

***Yekun hissə*** həm də görülən işin ümumiləşdirilmiş yekun qiymətləndirilməsinin olmasını nəzərdə tutur. Eyni zamanda, onun əsas mənasının nə olduğunu, hansı mühüm tərəfi elmi nəticələrin əldə edildiyini, dissertasiya tədqiqatı ilə bağlı hansı yeni elmi vəzifələrin yarandığını göstərmək vacibdir. Belə bir plana uyğun tərtib edilmiş yekun hissə dissertasiyanın nəzəri səviyyəsinin təsvirini tamamlayır, həmçinin onun müəllifinin peşəkar yetkinlik və elmi ixtisas səviyyəsini göstərir.

Bəzi hallarda öyrənilən mövzunun davam etdirilməsi yollarını, onun sonrakı öyrənilməsinin forma və üsullarını, habelə gələcək tədqiqatçıların ilk növbədə həll etməli olduqları konkret vəzifələri göstərmək zərurəti yaranır.

Nəticədə nəzəri materialların dəyərini artıran praktiki təkliflər də ola bilər. Bəzi hallarda öyrənilən mövzunun davam etdirilməsi yollarını, onun sonrakı öyrənilməsinin forma və üsullarını, habelə gələcək tədqiqatçıların ilk növbədə həll etməli olduqları konkret vəzifələri göstərmək zərurəti yaranır.

***İstifadə olunmuş ədəbiyyat siyahısı***. İstifadə olunmuş ədəbiyyat siyahısına daxil edilmiş hər bir mənbə dissertasiyanın mətnində öz əksini tapmalıdır. Magistrlik dissertasiyasının mətnində istifadə olunan mənbələrə istinadlar olmalıdır. İstifadə edilmiş ədəbiyyat siyahısında, əsasən son 10 ildə nəşr edilmiş ədəbiyyatlar öz əksini tapmalıdır. Biblioqrafik məlumatlar beynəlxalq "APA" istinad formatına (https://www.mendeley.com/guides/apa-citation-guide/) uyğun olaraq təsvir edilməlidir.

***Əlavələr.*** Dissertasiyanın əsas hissəsinin mətnini qarışdıran köməkçi və ya əlavə materiallar əlavədə yerləşdirilir. Əlavənin məzmunu çox müxtəlifdir. Məsələn, bunlar ilkin sənədlərin surətləri, hesabat materiallarından çıxarışlar, istehsal planları və protokolları, təlimat və qaydalardan müəyyən müddəalar, əvvəllər dərc olunmamış mətnlər, yazışmalar və s. ola bilər. Bu materiallar mətn, cədvəl, qrafik, xəritə formasında ola bilər.

Hər bir əlavə yuxarı sağ küncdə "Əlavə" sözü olan yeni vərəqdən (səhifədən) başlamalı və tematik başlığa malik olmalıdır. Dissertasiyada birdən çox əlavə olduqda, onlar ərəb rəqəmləri ilə (rəqəm işarəsi olmadan) nömrələnir, məsələn: "Əlavə 1", "Əlavə 2" və s. Əlavələrin verildiyi vərəqlərin nömrələnməsi davamlı olmalı və əsas mətnin vərəqlərinin ümumi nömrələnməsini davam etdirməlidir.

Əsas mətnin əlavə ilə əlaqəsi "bax" sözü vasitəsilə işlənən keçidlə həyata keçirilir. Adətən qısaldılır və formasına uyğun olaraq mötərizədə şifrə ilə əlavə olunur. (məsələn, bax Əlavə 1.)

## 6. MAGİSTRLİK DİSSERTASİYASININ TƏRTİBİ QAYDALARI

Magistrlik dissertasiyası kompüterdə latın əlifbası, Times New Roman – 14 şriftlə, 1,5 intervalla çap edilməli, əlavələrlə birlikdə həcmi minimum 35, maksimum 75 makina səhifə olmalı və tam şəkildə cildlənməlidir. Ümumiyyətlə dissertasiyanın həcmi mövzuya görə formalaşır və minimal həcm anlayışı yoxdur. Magistrlik dissertasiyasının titul vərəqinin və mətninin tərtibi Əlavə 6-da göstərilən tələblərə uyğun olmalıdır. Dissertasiyanın mətni boş sahələri göstərilən ölçüləri göstərilməklə çap edilir: sol boş sahə - 30 mm, sağ boş sahə - 10 mm, yuxarı və aşağı boş sahə - 20 mm. Sözlər arasındakı məsafəni nəzərə almaqla, sətirdəki işarələrin sayı 60-65-dən az olmamalıdır. Səhifədə sətirlərin sayı 29-31 olmalıdır.

Dissertasiyanın əsas mətni fəsil, yarımfəsil və bəndlərə bölünür. Fəsillərin başlıqları mətnə simmetrik şəkildə, böyük hərflərlə, yarımfəsillərin başlıqları isə abzasdan başlayaraq sətri hərflərlə yazılmalıdır (birinci baş hərf istisna olmaqla). Başlıqların yazılışında sözlərin hecalara ayrılaraq bir sətirdən digərinə keçirilməsinə yol verilmir. Başlığın axırında nöqtə qoyulmamalıdır. Əgər başlıq iki cümlədən ibarətdirsə, onları nöqtə qoymaqla bir-birindən ayırmaq lazımdır.

“MÜNDƏRİCAT”, “GİRİŞ”, “NƏTİCƏ”, “İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT”, “ƏLAVƏLƏR” sözləri dissertasiyanın uyğun struktur hissəsinin başlığı kimi qəbul edilməlidir.

Əgər dissertasiya işinin mövzusu bir neçə magistrant tərəfindən işlənibsə, o zaman mündəricatda işlədikləri hissənin qarşısında mötərizədə həmin magistrantların adı, soyadı, atasının adı qeyd olunmalıdır.

Fəsil və yarımfəsil arasındakı, eləcə də başlıq və mətnin (bəndin) arasındakı məsafə 2 interval olmalıdır. Başlığın altından xətt çəkmək olmaz. Hər fəsil yeni səhifədən başlanmalıdır.

**Nömrələmə.** Dissertasiyanın səhifələri ərəb rəqəmləri ilə nömrələnir. Dissertasiyanın səhifələri nömrələnərkən üz vərəqi də nəzərə alınır. Üz vərəqində nömrə çap edilmir, ondan sonra gələn səhifədə «2» rəqəmi, sonrakı səhifələrdə isə ardıcıl nömrələr səhifənin yuxarı sağ küncündə çap edilir. Səhifələr (əlavələr, arayışlar, aktlar və s. daxil olmaqla) ardıcıl olaraq nömrələnir.

İstifadə olunmuş ədəbiyyat siyahısına daxil olan bütün nəşrlər ərəb rəqəmləri ilə ardıcıl nömrələnməlidir. Fəsillər rum rəqəmləri ilə ardıcıl olaraq nömrələnir (məsələn: I FƏSİL). Mündəricat, giriş və nəticəyə nömrə qoyulmur.

Yarımfəslin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin və yarımfəslin nömrələrindən ibarətdir. Yarımfəslin sonunda nöqtə işarəsi qoyulur, məsələn: 2.5. (ikinci fəslin beşinci yarımfəsli).

Yarımfəslin daxilində bəndlər olduqda onlar ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir. Bəndin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin, yarımfəslin və bəndin nömrəsindən ibarətdir. Nömrənin sonunda nöqtə işarəsi qoyulur, məsələn: 2.5.1. (ikinci fəslin beşinci yarımfəslinin birinci bəndi).

Ayrıca səhifədə yerləşən illüstrasiyalar da (cədvəllər, çertyojlar, sxemlər, qrafiklər) dissertasiyanın səhifələri kimi nömrələnir. Ölçüləri A4 formatından böyük olan cədvəllər, şəkillər, çertyojlar bir səhifə kimi qəbul edilir və dissertasiyanın sonunda nəticədən sonra onların mətndəki sıra ardıcıllığı ilə yerləşdirilir.

Dissertasiyanın mətni və cədvəllərə arayış və aydınlaşdırıcı xarakter daşıyan qeydlər ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələn-məlidir. Əgər cəmi bir qeyd varsa, o nömrələnmir, əgər qeydlərin sayı birdən çoxdursa, «Qeyd» sözündən sonra iki nöqtə qoyulur və qeydlər nömrələnir. Məsələn:

Qeyd: Qeydlərin çapı üçün şriftin ölçüsü 12, sətirarası məsafə 1 interval olmalıdır.

**İllüstrasiyalar.** İllüstrasiyalar keyfiyyətli olmalıdır. Şəkillər həm qara tuş və ya qara mürəkkəblə çəkilə bilər, həm də rəngli ola bilər. Dissertasiyada yalnız kompüter və ya cizgi yolu ilə yerinə yetirilmiş şəkillərdən və orijinal fotolardan istifadə etmək olar.

A4 formatından kiçik olan fotolar standart ağ vərəqə yapışdırılmalıdır. Dissertasiyanın 1-ci və 2-ci nüsxələrində fotoların orijinalı olmalıdır.

İllüstrasiyalar elə yerləşdirilməlidir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdə onlara baxmaq mümkün olsun. İllüstrasiyalar mətndə onlara birinci istinaddan sonra yerləşdirilməlidir.

İllüstrasiyalar (cədvəllərdən başqa) «Şək.» sözü ilə nişanlanır və fəslin daxilində ərəb rəqəmləri ilə nömrələnir. İllüstrasiyanın nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin nömrəsindən və illüstrasiyanın ardıcıl nömrəsindən ibarətdir. Məsələn: Şək. 1.2 (birinci fəslin ikinci şəkli). İllüstrasiyanın nömrəsi və adı illüstrasiyanın altında yerləşdirilir.

**Cədvəllər.** Rəqəmli materiallar, adətən, cədvəl kimi tərtib olunur. Hər bir cədvəlin başlığı olmalıdır. “Cədvəl” sözü və başlıq böyük hərflə başlanmalıdır. Başlığın altından xətt çəkilməməlidir.

Cədvəl, mətndə onun ilk xatırladılmasından sonra elə yerləşdirilir ki, dissertasiyanı döndərmədən və ya saat əqrəbi istiqamətində döndərdikdən sonra onu oxumaq mümkün olsun. Sətirlərinin və sütunlarının sayı çox olan cədvəlləri hissələrə bölüb bir neçə səhifədə yerləşdirmək olar.

Fəslin içindəki cədvəllər ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnir (əlavədə verilmiş cədvəllər istisna olmaqla). Cədvəlin nömrəsi bir-birindən nöqtə ilə ayrılan fəslin nömrəsindən və cədvəlin ardıcıl nömrəsindən ibarətdir, məsələn, Cədvəl 1.2 (birinci fəslin

ikinci cədvəli). Əgər dissertasiyada cəmi bir cədvəl varsa, onu nömrələmək və "Cədvəl" sözü yazmaq lazım deyildir.

Əgər cədvəl iki və daha çox səhifədə yerləşirsə, "Cədvəl" sözü və onun nömrəsi cədvəlin birinci səhifəsinin sağ üst tərəfində bir dəfə göstərilir; cədvəlin qalan hissələrinin müvafiq yerlərində "ardı" sözü yazılır. Əgər dissertasiyada bir neçə cədvəl varsa, onda "ardı" sözünün qarşısında cədvəlin nömrəsi yazılır, məsələn: Cədvəl 1.2-nin ardı. Cədvəlin adı və nömrəsi cədvəlin üstündə yerləşdirilir. Nömrə sağ küncdə çap edilir.

Cədvəllərin sütun və sətirlərinin başlıqları, onların içərisindəki məlumatlar üçün şriftin ölçüsü 12, sətirarası məsafə bir interval olmalıdır.

**Formullar.** Mətndə verilən formullar (sayı birdən artıqdırsa) ərəb rəqəmləri ilə ardıcıl nömrələnməlidir. Formulun nömrəsi bir-birindən nöqtə ilə ayrılmış fəslin və formulun ardıcıl nömrələrindən ibarətdir. Formulun nömrəsi onunla bir səviyyədə səhifənin sağ tərəfində mötərizənin içində yazılır. Məsələn, (3.1) – yəni, üçüncü fəslin birinci formulu.

Formulda rast gəlinən simvolların mənası və ədədi əmsalların izahı, onların formuldakı yerləşmə ardıcıllığını nəzərə alaraq, bilavasitə formulun altında verilir. Hər bir simvolun mənası və ədədi əmsalın izahı yeni sətirdə yerləşdirilməlidir. İzahatın birinci sətri "Burada" sözündən başlamalıdır.

Tənliklər və formullar mətndən boş sətirlər vasitəsilə ayrıl-malıdır. Hər formulun üstündə və aşağısında bir və ya iki boş sətir olmalıdır. Tənlik bir sətrə yerləşmədikdə, onun ardı bərabərlik (=), üstəgəl (+), çıxma (-), vurma (x) və ya bölmə (:) işarələrinin hər hansı birindən sonra yeni sətrə keçirilir.

**Biblioqrafik istinadlar.** Dissertasiya mətnində istinad olunmuş mənbələr, ədəbiyyat siyahısında əlifba sırası ilə əks olunmalıdır və nömrələnmə olmamalıdır. İstinad olunmuş mənbə dissertasiyada istinad olunmuş fikirdən sonra APA formatına uyğun olaraq qısaldılaraq əks olunmalıdır. Məs, (Mushvig Imamverdiyev, 2015) və ya (Zhang, Downey, Urbano, & Klingler, 2015) Dissertasiyanın mətnində fərqli hissələrdə eyni ədəbiyyata dəfələrlə istinad edildiyi halda da eyni qayda ilə istinad olunur. Bunun üçün

istinad idarəetmə sistemlərindən olan Mendeley adlı ödənişsiz tətbiqin (https://www.zotero.org/download/) köməyindən istifadə etmək tövsiyyə olunur. Mətnin altında sətiraltı istinadlar məqsədəuyğun deyildir.

**Mündəricat.** Mündəricatda bütün fəsillərin, yarımfəsillərin və bəndlərin başlıqlarının dissertasiyanın hansı səhifəsindən başlandığı göstərilir.

**Şərti işarələr, simvollar, vahidlər və terminlərin siyahısı.** Əgər dissertasiyada xüsusi terminlərdən, həmçinin geniş yayılmamış ixtisarlardan, yeni simvollardan, işarələr və s. istifadə edilirsə, onların siyahısı "İxtisarların siyahısı" başlığı altında ayrıca vərəqdə dissertasiyanın əvvəlində verilməlidir.

Siyahı sütun şəklində yazılır, sütunun sol tərəfində (əlifba sırası ilə) ixtisarlar, sağ tərəfində isə onun dəqiq açılışı verilir.

Əgər dissertasiyada xüsusi terminlər, ixtisarlar, simvollar, işarələr üç dəfədən az təkrar edilirsə, onda siyahı tərtib edilmir, bunların açılışı isə mətndə onların birinci dəfə adı çəkilən kimi verilir.

**İstifadə edilmiş ədəbiyyat.** Dissertasiya işində istifadə edilmiş mənbələr çap olunduqları dillərdə beynəlxalq yazı stili olan APA formatının 7-ci versiyasına uyğun olaraq əlifba sırası ilə göstərilir. İstifadə edilmiş ədəbiyyat siyahısında ən azı 30-35 adda ədəbiyyatdan istifadə olunmalı, həmçinin son 3-5 ilin ədəbiyyatı öz əksini tapmalıdır.

Aşağıda ədəbiyyat siyahısının hazırlanması üçün müəyyən edilmiş qaydalara dair nümunələr göstərilmişdir:

✓ ***Çap və ya online formatda jurnal məqaləsi*** - Müəllifin soyadı tam, Adının baş hərfi. Ata adının baş hərfi. (Nəşr ili). Məqalənin sərlövhəsi. Jurnalın sərlövhəsi, Cild(№), səhifə aralığı. Nümunələr:

- ***Tək müəllifli jurnal məqaləsi :*** *Milligan, C. K. (2006). Yoga for stress management program as a complementary alternative counseling resource in a university counseling center. Journal of College Counseling, 9(2), 181-187.* https://doi.org/10.1002/j.2161-1882.2006.tb00105.x

- ***Çox müəllifli jurnal məqaləsi:*** *Grady, J. S., Her, M., Moreno, G., Perez, C., & Yelinek, J. (2019). Emotions in storybooks: A comparison of storybooks that represent ethnic and racial groups in the United States. Psychology of Popular Media Culture, 8(3), 207–217.* https://doi.org/10.1037/ppm0000185

✓ ***Qəzet məqaləsi*** – Müəllifin soyadı tam, Adının baş hərfi. (Nəşr ili, Ay Gün). Məqalənin sərlövhəsi. Qəzetin Sərlövhəsi. Nümunə: *Cəfərli, R. (2023, Noyabr 2). Azərbaycanın sülh modeli. Azərbaycan.*

✓ ***Təkmüəllifli kitab*** – Müəllifin soyadı, Adının baş hərfi. Ata adının baş hərfi. (Nəşr ili). Sərlövhə. Nəşriyyat. Nümunə: *Rəsulov, N.M. (2010), Maşın istehsalı texnologiyası I hissə, Təhsil.*

✓ ***Çoxmüəllifli kitab*** – Müəllifin soyadı tam, Adının baş hərfi. Ata adının baş hərfi., II Müəllifin soyadı tam, Adının baş hərfi, Ata adının baş hərfi., & III Müəllifin soyadı tam, Adının baş hərfi. Ata adının baş hərfi. (Nəşr ili). Sərlövhə. Nəşriyyat. Nümunə: *Mövlazadə, V. Z., Abbasova, H. M. (2023), Maşınqayırma texnoloji proseslərinin layihələndirilməsi. – "Mücri".*

✓ ***E-kitab*** – Müəllifin soyadı tam, Adının baş hərfi. Ata adı. (Nəşr ili). Sərlövhə. DOİ nömrəsi. Nümunə *Auster, P. (2007). The Brooklyn follies.* *http://www.barnesandnoble.com/*

✓ ***Əlyazma*** - Müəllifin soyadı tam, Adının baş hərfi. (Əlyazmanın tarixi). Əlyazmanın sərlövhəsi. Nümunə: *Cornwall, N. (1830). Nathaniel Cornwall Mathematics and Geometry Ciphering Books 1830-1832.*

✓ ***Tərcümə olunmuş ədəbiyyat*** – Müəllifin soyadı tam, Adının baş hərfi. (Nəşr ili). Sərlövhə /müəllifin adı və soyadı tam; tərc ed. Ad Soyad. Nəşriyyat. Nümunə: *Citati, P. (1986). Tolstoy / Pietro Citati ; translated by Raymond Rosenthal. Schocken Books.*

✓ ***Kitab fəsli*** - Müəllifin soyadı tam, Adının baş hərfi. (Nəşr ili). Fəslin sərlövhəsi. Kitabın sərlövhəsi. Nəşriyyat. Nümunə: *Vululleh, P. (2022). Careers in Information Technology. In Cyber Careers. Taylor & Francis Group.*

✓ ***Redaktorluqla yazılmış kitab*** – Müəllifin soyadı tam, adının baş hərfi.(Nəşr ili) Kitabın sərlövhəsi. Red ed. Ad Soyad və Ad soyad (əgər II redaktor varsa) Nəşriyyat.

Nümunə: *Rapport, S. B., & Wright, H. (1963). Mathematics. Edited by Samuel Rapport and Helen Wright. New York University Press.*

- ✓ ***Web resurs*** - Müəllifin adı, (2009) Resursun adı, ([Buraxılış versiyası]), müəssisənin adı. nümunə: *Jaikaran, C. (2023). The National Cybersecurity Strategy - going where no strategy has gone before / Chris Jaikaran. ([Library of Congress public edition].). Congressional Research Service.*
- ✓ ***Dissertasiya*** – Müəllifin soyadı tam, Adının baş hərfi. Varsa məsləhətçinin soyadı tam, adının ilk hərfi. (Nəşr ili). Dissertasiyanın sərlövhəsi, nəşriyyat. Nümunə: *O'Brien, J. L., & Haaga, D. A. F. (2013). Empathic accuracy in therapists / by Jennifer L. O'Brien. American University.*
- ✓ ***Lüğət*** – Müəllifin soyadı tam, Adının baş hərfi. (Nəşr ili). Sərlövhə: Paralel sərlövhə. Nəşriyyat. Nümunə: *Solonets, P. V. (2021). Gender and Dictionary: Russian Perspective. ProQuest Dissertations Publishing.*
- ✓ ***Konfrans materialı*** - Müəllifin soyadı tam, Adının baş hərfi. (Nəşr ili). Konfransın adı, səhifə aralığı. DOİ nömrəsi. Nümunə: *Boyle, R. (2008). Neither rocket science nor washing machine science, but computer science. Proceedings of the 13th Annual Conference on Innovation and Technology in Computer Science Education, 5–6.* https://doi.org/10.1145/1384271.1384274
- ✓ ***Video material*** - Videonun adı. [format] / (İl). Nəşriyyat və ya istehsalçı. Nümunə: *The video encyclopedia of the 20th century. (1986). Created, produced and distributed by CEL Communications.*

Daha artıq nümunələr üçün https://t.ly/bBAH7 linkinə daxil olmaq tövsiyə olunur. Zotero tətbiqindən istifadə edildiyi təqdirdə müəlliflər heç bir halda bu formatlarla təsvirləri düzmək məcburiyyətində qalmır. Tətbiq düzgün istifadə edildiyi təqdirdə ədəbiyyat siyahısı tətbiq tərəfindən APA7 standartlarına (digər beynəlxalq standartlar da həmçinin) uyğun olaraq avtomatlaşdırılır və həmin tətbiqin vasitəsilə istinadların düzülüşü də asanlaşdırılır.

## 7. MAGİSTRLİK DİSSERTASİYASININ REFERATININ TƏRTİBİ

Magistrant müdafiə üçün dissertasiya işinin bütünn məzmun və kompozisiyasının yığcam icmalını əks etdirən referat işləməlidir. Bu sənəd nəticə və təkliflərin nəşri, həmçinin müzakirə və müdafiə proseslərində başlanğıc məruza materialı rolunu oynayır. Referatda əsas etibarila dissertasiyanın "Giriş"ində olan malumatlar (aktuallıq, məqsəd, vəzifələr, elmi yenilik, praktiki əhəmiyyət, metodlar, metodologiya və s.) göstərilir. Referatda dissertasiyanın əsas ideyaları və nəticələri izah olunmalı, onun yenilik dərəcəsi və tədqiqatın nəticələrinin elmi və praktiki əhəmiyyəti, aparılan tədqiqatlarda müəllifin şəxsi töhfəsi göstərilməlidir. Burada həmçinin mövzu ilə bağlı yazılmış əsərlərə də qısa şərh verilə bilər. Referatda dissertasiyanın fəsilləri haqqında da müxtəsər məlumat verilə bilər. Referatda mövzu ilə bağlı müəllifin çap olunmuş məqalələri, tezisləri, tələbə elmi cəmiyyətində, elmi konfranslarda çıxışları, təltifləri də göstərilməlidir.

Referatın mətni 1,0 intervalla yazılmalı, həcmi 4 (A5 formatı) səhifədən çox olmamalıdır. Mətn Azərbaycan dilində latın əlifbası, Times New Roman -12 şrifti ilə çap olunmalıdır. Referatın mətni boş sahələrin göstərilən ölçüləri gözlənilməklə çap edilir: sol boş sahə - 25 mm, sağ boş sahə - l0 mm, yuxarı və aşağı boş sahə -15 mm. Digər müvafiq yazılış texnikası isə dissertasiyanın ümumi tərtibat qaydaları ilə uyğunluq təşkil etməlidir. Əlavə 16-da referatın titul vərəqi, Əlavə 7-də isə magistrlik dissertasiyasının referatının nümunəvi quruluş sxemi verilmişdir. Referatın titul səhifəsi dissertasiyada olduğu kimidir. Lakin burada "Dissertasiya" sözünün yerinə "Referat" sözü yazılır. Referatın sonuncu vərəqində işin hansı kafedrada yerinə yetirildiyi, elmi rəhbərin adı, soyadı, atasının adı, elmi dərəcəsi, elmi adə göstərilir. Dissertasiyaya rəy vermiş rəyçinin adı, soyadı, atasının adı, elmi titulları göstərilir. Daha sonra dissertasiyanın müdafiə vaxtı və yeri göstərilir.

## 8. MAGİSTRLİK DİSSERTASİYASININ MÜDAFİƏSİ

Tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəmiş və imtahanları müvəffəqiyyətlə vermiş magistrantlar magistrlik dissertasiyasının müdafiəsinə buraxılırlar.

Magistrant öz dissertasiya işini bitirdikdən və qoyulan tələblərə uyğun tərtib etdikdən sonra referatla birlikdə elmi rəhbərə təqdim edilir. Elmi rəhbər işi yoxlayıb, bəyəndikdən sonra yazılı rəyi ilə birlikdə ilkin müzakirə üçün müvafiq İnstitutlara təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu əsaslandırılır. Bundan əvvəl, işdə plagiatın olmaması üçün yoxlamaq və tədqiqat mətninin "orijinallığını" təsdiq edən sənəd təqdim etmək lazımdır. Əlavə 8-də Elmi rəhbərin rəyinin forması və dissertasiya işinin qiymətləndirmə göstəriciləri verilmişdir.

Dissertasiya AzTU-nun İnstitutlarında (kafedralarla birlikdə) müzakirə edilir və protokoldan çıxarışla birlikdə YTİ-yə təqdim olunur. Sənədləri təqdim etmək üçün yazılan Ərizənin nümunəsi Əlavə 9-da göstərilmişdir.

YTİ-nin direktoru təqdim olunmuş materialların müdafiəyə buraxılması barədə qərar qəbul edir və magistrlik dissertasiyasının titul vərəqində müvafiq qeydlər aparır.

YTİ-nin direktoru magistrantı dissertasiya müdafiəsinə buraxmağı mümkün hesab etmədikdə bu məsələyə elmi rəhbərin iştirakı ilə şöbədə baxılır.

Magistrlik dissertasiyasının ixtisaslaşdırılmış Şurada müdafiəsi üçün magistrant müdafiəyə ən azı 3 gün qalmış Şuraya aşağıdakı sənədləri təqdim edir:

- ərizə (YTİ-nin direktorunun müvafiq dərkənarı ilə);
- elmi rəhbərin rəyi;
- magistrlik dissertasiyası, 1 nüsxə (müdafiədən sonra fakültədə saxlanılır);
- referat 1 nüsxə (müdafiədən sonra fakültədə saxlanılır);
- magistrantın fərdi iş planının surəti.

İxtisaslaşdırılmış şuranın katibi sənədləri yoxlayıb qəbul edir, müdafiənin vaxtı və keçirəcəyi yer barədə referatda müvafiq qeydlər aparır (bax: Əlavə 18).

Əgər, tələb olunan sənədlər və materiallar magistrant tərəfindən vaxtında təqdim olunmazsa, müdafiənin vaxtı yalnız üzürlü səbəblər olduqda müəyyən olunmuş qaydalara uyğun dəyişdirilə bilər.

İxtisaslaşdırılmış şuranın iclası onun işində təsdiq olunmuş tərkib hissəsi iştirak etdikdə səlahiyyətli sayılır. İxtisaslaşdırılmış Şuranın tərkibi Sədr (AzTU-nun təqdimatı əsasında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş) və üzvlərdən (biri institutun rəhbəri, kafedra müdiri, digərləri isə AzTU-nun YTİ-nin İdarə Heyətinin müəyyən etdiyi üzvlərdən və kafedranın professor müəllim heyyətindən) ibarətdir.

***Qeyd:*** Elmi rəhbər magistrlik dissertasiyasının müdafiəsində iştirak edə bilər, lakin qiymətləndirmədə iştirak edə bilməz.

Magistrlik dissertasiyasının açıq müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi riayət şəklində keçməlidir. Bu zaman dissertasiyada olan bütün nəticələrin, elmi və praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması hərtərəfli təhlil edilməlidir.

Elmi rəhbər müsbət rəy təqdim etdikdə müdafiədə iştirak etməyə də bilər. İxtisaslaşdırılmış şurada hər magistrlik qrup müdafiəsi üçün dissertasiyasının müdafiəsi üçün minimum 45 dəqiqə vaxt ayrılır ki, onun da 15 dəqiqəyə qədəri magistrantın məruzəsi üçün nəzərdə tutulub.

İlk söz magistranta verilir. Çıxışdan sonra magistrant İxtisaslaşdırılmış Şuranın üzvlərinin suallarını cavablandırır. Sonra elmi rəhbər və ya elmi məsləhətçi çıxış edir, magistrantın öz tədqiqatının həyata keçirilməsi ilə nə dərəcədə müstəqil, yaradıcılıqla bağlı olduğunu xarakterizə edir və işin əsasnamənin və dövlət standartının tələblərinə uyğunluğunu qeyd edir.

Sonra işin qısa təsviri və qiymətləndirilməsi üçün söz rəyçiyə verilir, bundan sonra onun müzakirəsi başlayır.

Sonda söz irad və sualları cavablandıran, çıxışlara münasibətini müəyyən edən magistranta verilir.

Müdafiənin nəticələri aşağıdakı məqamların cəminə görə qiymətləndirilir:

- magistrlik dissertasiyasının məzmununa görə;
- magistrlik dissertasiyasının tərtibatına görə;
- magistrantın çıxışına görə;
- müdafiə zamanı magistrantın suallara cavablarına görə;
- işin rəhbəri tərəfindən magistrantın xarakteristikasına görə;
- işin aprobasiyasına görə.

Dissertasiya işinin müdafiəsinin zamanı verilən qiymət İxtisaslaşdırılmış Şuranın hər bir üzvü tərəfindən Əlavə 10-da verilmiş qiymətləndirmə cədvəlində qeyd olunur və imzası ilə təsdiqlənir. Magistrlik dissertasiyasının müdafiəsinə görə toplanan balın minimal həddi 51 baldan az olmamalıdır.

Magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi üzrə toplanan balların yekun miqdarına görə qiymət aşağıdakı kimi təyin edilir:

| | | |
|---|---|---|
| 91-100 bal | – “əla” | – A |
| 81-90 bal | – “çox yaxşı” | – B |
| 71-80 bal | – “yaxşı” | – C |
| 61-70 bal | – “kafi” | – D |
| 51-60 bal | – “qənaətbəxş” | – E |
| 0-5 bal | – “qeyri-kafi” | – F |

Əgər dissertasiya barədə ixtisaslaşdırılmış şura mənfi qərar qəbul edərsə, onun yenidən müdafiəsinə işdəki çatışmazlıqlar aradan qaldırılmaqla, mənfi qərar qəbul edilən gündən ən azı bir ay müddət keçdikdən sonra icazə verilir. Əgər dissertasiya barədə yenidən mənfi qərar çıxarılarsa, onun yeni mövzuda təkrar (2 dəfədən çox olmamaqla) müdafiəsinə növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir.

Təkrar müdafiə olmadıqda, magistranta müvafiq proqramı dinlədiyi haqda arayış verilir.

*Əlavə 1*

**Təsdiq edirəm**
**Azərbaycan Texniki Universitetinin**
**Yüksək Təhsil İnstitutunun direktoru**

____________________________
*(elmi adı, adı, soyadı və imzası)*

____________________________
*(tarix)*

**Magistrlik dissertasiyalarının mövzularının**

**və elmi rəhbərlərinin siyahısı**

**İxtisas:** ____________________________________________

**İxtisaslaşma:** ____________________________________________

**Qrup:** __________

| S/s | Magistrantın soyadı, adı və atasının adı | Mövzunun adı | Elmi rəhbər (elmi dərəcəsi, elmi adı, soyadı, adı, atasının adı) |
|---|---|---|---|
| 1 | | | |
| 2 | | | |
| ... | | | |
| ... | | | |

*Əlavə 2*

## ***MAGİSTRLİK DİSSERTASİYASININ YERİNƏ YETİRİLMƏSİ MƏRHƏLƏLƏRİ VƏ MÜDDƏTLƏRİ SXEMİ***

| | |
|---|---|
| Dissertasiyanın mövzusunun və elmi rəhbərin təsdiqi | II kurs<br>sentyabr - dekabr |
| Dissertasiya üzərində iş | III – IV semestr |
| Dissertasiya və referatın elmi rəhbərə təqdimi | IV semestr<br>mart |
| Elmi rəhbərin rəyinin institutlara təqdim edilməsi | IV semestr<br>aprel |
| Dissertasiyanın ilkin müdafiəsi | IV semestr<br>15 may tarixinədək |
| Dissertasiya işinin yekun müdafiəsi | IV semestr<br>1 iyun – 15 iyun |
| Dissertasiyanın kitabxanaya təhvil verilməsi | IV semestr<br>15 iyun -1 iyul |

*Əlavə 3.*

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**YÜKSƏK TƏHSİL İNSTİTUTU**

<<Təsdiq edirəm>>

Yüksək Təhsil İnstitutunun direktoru ________________

<<______>>______________20___

## MAGİSTRANTIN FƏRDİ İŞ PLANI

1. __________________________________________________________________

(magistrantın soyadı, adı, atasının adı)

2. İxtisas ____________________________________________________________

(ixtisasın şifri və adı)

3. İxtisaslaşma__________________________________________________________

______________________________________________________________________

4. Magistraturada təhsil aldığı dövr_________________________________________

5. Elmi rəhbər___________________________________________________________

(soyadı, adı, atasının adı)

6. İxtisas kafedrası _____________________________________________________

7. Magistrlik dissertasiyasının mövzusu__________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

( «_____ »___________20___ il tarixli __________ saylı əmrlə təsdiq edilib)

8. Dissertasiya mövzusunun seçilməsinin əsaslandırılması______________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

9. Magistrantın dissertasiyasını təqdim etmə müddəti__________________________

*Əlavə 3-ün ardı*

**MAGİSTRLİK DİSSERTASİYASININ İŞ PLANI**

*Magistrlik dissertasiyasının mövzusu:* ______________________________
______________________________________________
______________________________________________
______________________________________________

*İşin məqsədi*: ______________________________________
______________________________________________
______________________________________________
______________________________________________

*İşin planı:* ________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

Magistrant________________________________________ ____________
(magistrantın A.S.A.) (imza, tarix)

Elmi rəhbər ______________________________________ ____________
(elmi dərəcəsi və elmi adı, A.S.A.) (imza, tarix)

*Əlavə 3-ün ardı*

**I semestr**
**(II semestr ...)**

Tədris

| № | Fənnin adı | Kredit | Auditoriya saatları | Attestasiyanın nəticəsi | Attestasiyanın tarixi |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| 3 | | | | | |
| 4 | | | | | |
| 5 | | | | | |
| 6 | | | | | |
| 7 | | | | | |

Elmi-tədqiqat

| Planı üzrə görüləcək işlər | İşin yerinə yetirilməsi müddəti | Rəhbər(lər)in qeydləri |
|---|---|---|
| 1 | 2 | 3 |
| | | |
| Magistrantın imzası ______________ | Elmi rəhbərin imzası________________ | |

Hesabatın nəticələri______________________________________________________
_________________________________________________________________________
_________________________________________________________________________

Hesabat dinlənilmişdir <<______>> <<________________>> 20_____

Hesabat komissiyasının üzvləri
1. ____________________________
2. ____________________________
3. ____________________________

*Əlavə 4*

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**YÜKSƏK TƏHSİL İNSTİTUTU**

___________________________________________________

(Magistrant(lar)ın A.S.A.)

__________________________________________________mövzusunda

(Magistrlik dissertasiyasının mövzusu)

**MAGİSTRLİK DİSSERTASİYASI**

___________________________________________________

(İxtisasın şifri və adı)

___________________________________________________

(İxtisaslaşmanın şifri və adı)

Elmi rəhbər: ______________________________________________

______________________________________________

______________________________________________

**BAKI – 20___**

Qeyd: Xətlər və xəttaltı şərhlər çap olunmur.

*Əlavə 5.*

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**YÜKSƏK TƏHSİL İNSTİTUTU**

***MAGİSTRANTIN ANDI***

_______________________________________________ mövzusunda təqdim etdiyim(iz)
(Magistrlik dissertasiyasının mövzusu)

magistrlik dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazdığıma and içiriəm(ik) və magistrlik dissertasiyasının AzTU Kitabxana İnformasiya Mərkəzində saxlanılması, həmin mərkəz tərəfindən AzTU Rəqəmsal Repozitoriyasına daxil edilərək repozitoriyanın veb saytında yerləşdirilməsinə icazə veririk.

______________________________ ________________
(Adı, Soyadı) (imza)

______________________________ ________________
(Adı, Soyadı) (imza)

______________________________ ________________
(Adı, Soyadı) (imza)

***Tarix***

*Əlavə 6.*

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**YÜKSƏK TƏHSİL İNSTİTUTU**

Əlyazma hüququnda

(Magistrantın A.S.A.)

(Magistrlik dissertasiyasının mövzusu)

(İxtisasın şifri və adı)

Magistr dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**REFERATI**

**BAKI – 202_**

Qeyd:

Xəttlər və xəttaltı şərhlər çap olunmur.

*Əlavə 6-ın davamı*

***Referatın axırında (sonuncu səhifəsində)***

Magistrlik dissertasiyası Azərbaycan Texniki Universitetinin __________________ __________________________________________ kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər:__________________________________________________________

(elmi dərəcəsi, elmi adı, A.S.A.)

Müdafiə «______» __________ 20___ il tarixində saat ____da Azərbaycan Texniki Universitetinin _______________________ kafedrasının nəzdində fəaliyyət göstərən İxtisaslaşdırılmış Elmi Şuranın iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1073, H.Cavid prospekti 25, Bakı, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Texniki Universitetinin Kitabxana İnformasiya Mərkəzində tanış ola bilərsiniz.

İxtisaslaşdırılmış Elmi Şuranın Elmi katibi:

_______________________________________

(elmi dərəcəsi, elmi adı, imzası, adı və soyadı)

Qeyd:

Xəttlər və xəttaltı şərhlər çap olunmur.

*Əlavə 7.*

## MAGİSTRLİK DİSSERTASİYASININ REFERATININ QURULUŞ SXEMİ

*Mövzunun aktuallığı*______________________________________________________

*Tədqiqatın predmet və obyekti* ____________________________________________

*Tədqiqatın əsas məqsəd və məsələləri* ______________________________________

*Tədqiqatın işlənmə metodları* _____________________________________________

*Tədqiqatın elmi yenilikləri* ______________________________________________

*Tədqiqatın praktiki əhəmiyyəti* ___________________________________________

*Dissertasiya işinin strukturu* _____________________________________________

*Dissertasiya işinin I fəslində baxılan məsələlər* ______________________________

*Dissertasiya işinin II fəslində baxılan məsələlər* ______________________________

*Dissertasiya işinin III fəslində baxılan məsələlər* _____________________________

*Nəticə və təkliflər*________________________________________________________

*Əlavə 8.*

______________________________________________________________kafedrasının
*(kafedranın adı)*
______________________________________________________________ixtisası üzrə
*(ixtisasın şifri və adı)*
______________________________________________________________magistrantı
*(magistrantın A.S.A.)*
magistr dərəcəsi almaq üçün_________________________________________________

______________________________________________________________mövzusunda
*(Magistrlik dissertasiyasının adı)*

təqdim etdiyi dissertasiya işinə Elmi rəhbərin

**RƏYİ**

| |
|---|
| Rəyin mətni |

| | | | |
|---|---|---|---|
| ____________ | ____________ | __________ / | __________ |
| *(elmi dərəcəsi)* | *(elmi adı)* | *(imza)* | *(A.S.A)* |
| ____________ | ____________ | __________ / | __________ |
| *(elmi dərəcəsi)* | *(elmi adı)* | *(imza)* | *(A.S.A)* |

## ELMİ RƏHBƏRİN MAGİSTRLİK DİSSERTASİYASINI QİYMƏTLƏNDİRMƏ GÖSTƏRİCİLƏRİ

| qrup | Göstəricilər |
|---|---|
| Peşəkarlıq | 1. Elmi, konstruktor, texnoloji və digər həllərin əldə edilmiş nəticələrinin orijinallığı və yeniliyi |
| | 2. Magistrantın işdə müstəqillik və yaradıcı iştirakı |
| | 3. Formalaşdırılmış tədqiqat və təkmilləşdirmə tapşırıqlarının düzgünlüyü |
| | 4. İşdə tədqiqat metodlarından, riyazi modelləşdirmədən, xüsusi hesablamalardan istifadə səviyyəsi və düzgünlüyü |
| | 5. Nəticələrin kommersiyalaşdırılması imkanı |
| Sorğu-məlumat | 6. İşin mürəkkəbliyi dərəcəsi. Təbiət elmləri, sosial-iqtisadi, ümumi peşə və xüsusi fənlər üzrə biliklərin tətbiqi |
| | 7. İnternet informasiya resurslarından istifadə |
| | 8. Müasir kompüter proqramları və texnologiyalarından istifadə |
| | 9. Nəşrlərin mövcudluğu, elmi-texniki konfranslarda iştirak, müsabiqələrdə iştirak zamanı əldə olunan mükafatlar |
| Tərtibat qaydaları | 10. Məsələnin vəziyyətinə baxılmasının tamlıq dərəcəsi |
| | 11. Təqdimatın aydınlığı, tutarlılığı və əsaslılığı |
| | 12. İzahat hissəsinin keyfiyyəti (ümumi savadlılıq səviyyəsi, təqdimat tərzi, şəkillərin keyfiyyəti, işin tələblərə uyğunluğu) |
| | 13. Qrafik materialların icrasının həcmi və keyfiyyəti, onun standartlara uyğunluğu. |

*Əlavə 9.*

Azərbaycan Texniki Universitetinin
“Yüksək Təhsil İnstitutu”nun direktoruna
_______________________________________
həmin universitetin _____ qrup magistrantı
_______________________________________
______________________________tərəfindən

**Ə R İ Z Ə**

“_______________________________________________________________________________
_____________________________________________________________________” mövzusunda magistrlik dissertasiya işimi yerinə yetirmişəm. Sizdən xahiş edirəm ki, mənə dissertasiya işimi İxtisaslaşmış Elmi Şurada müdafiə etmək üçün icazə verəsiniz.

**Ərizəmə əlavə edirəm:**

1. Dissertasiya işi (cildlənmiş)....................... 1 nüsxə
2. Dissertasiya işinin referatı.......................... 2 nüsxə
3. Fərdi iş planı............................................... əsli
4. Elmi rəhbərin rəyi ..................................... 1 nüsxə
5. İxtisas kafedrasının ilkin müdafiə haqqında institutun iclasının protokolundan çıxarışı 1 nüsxə
6. Dissertasiya işinin elektron versiyası. ..... 1 nüsxə
7. Antiplagiat proqramı ilə yoxlanılmanın rəyi…..1 nüsxə

*Əlavə 10.*

**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ**

**YÜKSƏK TƏHSİL İNSTİTUTU**

________________________________________________________________

İxtisası üzrə 20__/ 20__ tədris ilində təhsilini başa vurmuş magistrantların magistrlik dissertasiyalarının AzTU-nun Yüksək Təhsil İnstitutunun (YTİ) İxtisaslaşdırılmış Şurasının iclasında müdafiəsinin qiymətləndirilməsinin

**NƏTİCƏLƏRİ**

| № | Magistrantın S.A.A. | Dissertasi-yanın məz-munu (0-20 bal) | Dissertasiyanın tərtibatının standartlara uyğunluğu (0-20 bal) | Məruzənin qiymətlən-dirilməsi (0-20 bal) | Suallara cavabların qiymətlən-dirilməsi (0-20 bal) | İxtisas üzrə hazırlıq bili-yinin qiymət-ləndiril-məsi (0-20 bal) | Müdafiənin qiymətləndi-rilməsi üzrə yekun bal (0-100 bal) | Müdafiənin qiymətləndiril-məsi üzrə yekun qiymət |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | Əliyeva Xədicə Həmid qızı | 20 (iyirmi) | 20 (iyirmi) | 20 (iyirmi) | 20 (iyirmi) | 20 (iyirmi) | 100 (yüz) | A (əla) |
| 2. | | | | | | | | |

**Tarix**______________

Sədr:________________________________________________________________

(elmi dərəcəsi, elmi adı, imzası, adı, soyadı)

Üzvlər:______________________________________________________________

(elmi dərəcəsi, elmi adı, imzası, adı, soyadı)